KOB

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

SAT GROUP

**Bazar araşdırması təqdimatı**

# MİNİK VƏ YÜK AVTOMOBİLLƏRİNDƏ YAĞDƏYİŞMƏ XİDMƏTLƏRİ

# Araşdırma metodologiyası

**Minik və yük avtomobillərində yağdəyişmə xidmətlərinin bazar araşdırması çərçivəsində aşağıdakı araşdırmalar və sorğular aparılıb :**

- Kabinet araşdırması, o cümlədən müxtəlif mənbələrdən əldə edilmiş statistik və analitik məlumatlar;
- Yağdəyişmə xidmətləri mərkəzləri arasında sorğular;
- Əhali arasında onlayn qaydada sorğular;
- SWOT analizi



# ÖLKƏDƏ ÜMUMİ NƏQLİYYAT VASİTƏLƏRİ İLƏ BAĞLI STATİSTİK GÖSTƏRİCİLƏR

# Azərbaycanda qeydiyyatda olan  minik avtomobillərinin sayında davamlı şəkildə artım var

## Azərbaycanda qeydiyyatda olan minik avtomobillərinin sayı (ədəd)



# Azərbaycanda qeydiyyata salınan yük avtomobillərinin sayında da artım var

## Azərbaycanda qeydiyyatda olan yük avtomobillərinin sayı (ədədlə)



# Ölkədə ən çox qeydiyyat olan maşın markası Lada Vazın modelləri, daha sonra isə Mercedes-Benz markalı alman avtomobil markasıdır

## Azərbaycanda qeydiyyatda olan minik avtomobillərinin markası (2019-cu il üzrə, ədədlə)



# İllər üzrə müqayisədə avtomobil idxalı davamlı şəkildə artır

## Azərbaycana illərə görə idxal olunan minik avtomobillərinin sayı (ədədlə)



# Azərbaycanda yük maşını idxalında son iki ildə eynilik var

## Azərbaycana illərə görə idxal olunan yük avtomobillərinin sayı (ədəd)



# Azərbaycana ən çox idxal olunan yağ BƏƏ dən daha sonra Belçikadan gəlir.

## Azərbaycana idxal olunan yağların ölkələr üzrə statistikası 2020 üzrə (ton)



# Azərbaycana idxal olunan yağların miqdarında ümumi artım olsa da, 2020-ci ildə 2019-cu ilə nəzərən azalma var.

## Azərbaycana idxal olunan yağların ümumi statistikası (tonla)



# YAĞDƏYİŞMƏ XİDMƏT MƏRKƏZLƏRİ İLƏ SORĞULAR (B2B)

# Bakıdaxili yağdəyişmə yerlərinin çox hissəsi 1 xidmət boksundan , daha sonra isə 1 dən daha çox bokslu yağdəyişmə mərkəzidir

## Yağ dəyişmə servislərinin xarici görünüşü

Say:20 Yağdəyişmə mərkəzi



# Yağdəyişmə servislərində əsas təklif olunan xidmət filtrlərin dəyişdirilməsi, digər xidmət isə sürətlər qutusunun yağının dəyişdirilməsidir.

## Müştərilərə yağ dəyişimi ilə paralel təklif olunan xidmətlər

Say:20 Yağdəyişmə mərkəzi



# Bazarda müştərilərlə yaşanan ən əsas problem qiymətin baha olmasıdır, daha sonra servisdə istifadə olunan yağ markasın bəyanilməməsidir

## Yağdəyişmə servislərində müştərilərlə yaşanan əsas problemlərin bölgüsü

Say:20 Yağdəyişmə mərkəzi



# Servislərin ümumi fikirləri eynilik təşkil edir , hərkəs eyni əlavələrin satışda müsbət təsir edəciyini düşünür.

**Sizcə servislərdə hansı əlavələr olsa satışlar artar?**

**Say:20 Yağdəyişmə mərkəzi**



# Yağ dəyişmə servislərinə yaxınlaşan müştərilərin böyük hissəsi əlavə xidmət olaraq filtrlərin dəyişilməsini istəyir.

**Müştərilər servisə yaxınlaşdıqda yağ dəyişimindən başqa hansı xidmətlər istəyir ?**

**Say:20 Yağdəyişmə mərkəzi**



# Yağ dəyişmə servislərində satılan əsas qiymət aralığı 10 - 14.99 AZN-dir.

**Ən çox hansı qiymət aralığında mühərrik yağı alınır? (1 Litr)**

**Say:20 Yağdəyişmə mərkəzi**



# Yağ dəyişmə servislərində tək bir marka üstünlük təşkil etmir.

**Yağdəyişmə servisində ən çox hansı yağ markası satırsınız?**

**Say:20 Yağdəyişmə mərkəzi**



## Pandemiyadan əvvəl günlük orta yağdəyişmə sayı 10 idisə indi əsasən 0-5 aralığındadır. Səbəb kimi sahibkarlar (ustalar) müştərilərin daha gec yağdəyişməyə gəlməsini qeyd edir.

**Yağ dəyişmə servisində gün ərzində neçə avtomobil üçün yağ dəyişirsiniz ?**

**Say:20 Yağdəyişmə mərkəzi**



# Yağ markaların topdan alış qiymətlərinin bahalaşması sektor üçün ciddi problem yaradır. İkinci sırada isə artan rəqabət amilidir.

**Yağ dəyişmə sektorunda ən böyük problem nədir ?**

**Say:20 Yağdəyişmə mərkəzi**



# ƏHALİ ARASINDA YAĞDƏYİŞMƏ XİDMƏTLƏRİ İLƏ BAĞLI ONLAYN SORĞULAR

## Sorğuda iştirak edən şəxslər əsasən kişilər olub. Azərbaycanda sürücülərin 96%-i kişilərdən ibarətdir.

SAY: 583



## Sorğuda iştirak edənlər əsasən Bakı-Abşeron bölgəsində yaşayan şəxslərdir.

SAY: 583



## Sorğuda iştirak edənlərin böyük hissəsi 35 yaşa qədər olan şəxslərdən ibarətdir.

SAY: 583

### Yaş bölgüsü



# Sorğuda əsasən daha aşağı/orta gəlir qrupuna aid olan şəxslər iştirak edib

SAY: 583



# Sorğuda iştirak edənlərin 477-i minik avtomobili idarə edir, 106-ı isə yük avtomobili idarə edir.

**Sorğuda iştirak edənlərin idarə etdikləri nəqliyyat vasitələrinə görə bölgüsü?**



# Sorğuda iştirak edən minik avtomobili idarə edən sürücülərin böyük hissəsi yağ dəyişimi üçün servisə yaxınlaşır

SAY: 477

## Avtomobilin yağdəyişmə vaxtı gəldikdə siz nə edirsiniz ?



# Yağ dəyişimini özü edənlərin cavablarına əsasən, insanlar sürüş km-ə uyğun olaraq yağ dəyişir.

SAY: 37

**Avtomobilin yağını hansı müddət aralığında dəyişirsiniz ?**



## Yağdəyişməni özü edənlər arasında sorğu nəticələrinə əsasən sürücülər 0-7000 km arasında yağ dəyişirlər.

SAY: 37

**Avtomobilinizin mühərrik yağının dəyişilməsini neçə km sürdükdən sonra edirsiniz?**



# Araşdırma nəticələrinə əsasən yağdəyişməni özü edənlər bu proses üçün 0-30 AZN aralığında pul xərcləyirlər.

SAY: 37

## Hər yağdəyişmə zamanı mühərrik yağının dəyişilməsi üçün nə qədər pul xərcləyirsiz?



## Yağdəyişməni özü edən sorğu iştirakçılarının 87%-i yağ markalarının adına önəm verir.

SAY: 37

**Sizin üçün yağ brendinin önəmi varmı?**



# Araşdırma nəticələrinə əsasən yağdəyişiməni özü edənlər yağın keyfiyyətinə görə seçirlər

SAY: 37

## Avtomobiliniz üçün mühərrik yağını nəyə əsasən seçirsiniz ? (çox variantlı)



# Yağdəyişimini özü edənlər əsasən Castrol və Shell yağ markalarından daha çox istifadə edirlər.

SAY: 37

**Avtomobiliniz üçün hansı mühərrik yağı markası istifadə edirsiniz?**



# Servisə getməyib yağdəyişməni özü edənlər əsasən mühərrik və sürət qutusun yaxşı qorunmasını vacib sayırlar.

SAY: 37

## Mühərrik və sürət qutusu yağlarında sizin üçün ən vacib amil nədir? (çox variantlı)



# Yağın dəyişimi üçün servisə gedənlər də əsasən sürüş km-ə uyğun olaraq yağ dəyişir

SAY: 440

## Avtomobilin yağdəyişməsini nə vaxt edirsiniz ?



# Yağ dəyişmək üçün servisə gedən insanların cavablarına görə 86.2% sürücü 0-7000 km arasında mühərrik yağını dəyişdirir.

SAY: 440

## Avtomobilinizin mühərrik yağını neçə km sürdükdən sonra dəyişdirirsiniz?



# Araşdırma nəticələrinə əsasən yağdəyişməni servisdə edənlər 51-100 AZN arasında pul xərcləyirlər.

SAY: 440

## Hər yağdəyişmə zamanı mühərrik yağının dəyişilməsinə nə qədər xərcləyirsiz?



## Araşdırma nəticələrinə əsasən yağdəyişmə üçün servisə gedənlər hazırda istifadə etdikləri servisi dost-tanış məsləhəti ilə tapıblar.

SAY: 440

### İndi getdiyiniz yağdəyişmə mərkəzi haqqında haradan məlumat almısınız?



# Yağdəyişmək üçün ən çox Məhəllədaxili və kiçik yağdəyişmə yerləri üstünlük təşkil edir, daha sonra isə iri həcimli yağdəyişmə mərkəzlərindən istifadə olunur.

SAY: 440

## İndi getdiyiniz yağdəyişmə mərkəzi aşağıdakılardan hansına uyğun gəlir?



# Yağdəyişmə servislərinə gedən şəxslər arasında sorğuya uyğun olaraq, bu sürücülər də yağ markasına önəm verir.

SAY: 440

## Sizin üçün yağ markasının önəmi varmı?



# Yağdəyişmə servislərinə gedən şəxslər yağın keyfiyyətinə və orjinallığına əsasən yağ seçirlər.

SAY: 440

## Avtomobiliniz üçün nəyə əsasən yağ seçirsiniz ?



# Yağdəyişmə servislərinə gedən şəxslər əsasən Liqui Moly yağ markasını seçirlər, amma yağ markası üzrə seçimlərdə bölünmə çoxdur.

SAY: 440

**Avtomobiliniz üçün hansı yağ markasından istifadə edirsiniz?**



# Yağdəyişmə servislərinə gedən şəxslərin verdikləri cavablara əsasən onlar üçün ən vacib amil yağın keyfiyyətidir.

SAY: 440

## Mühərrik və sürət qutusu yağlarında sizin üçün vacib amil nədir?



# Yağdəyişmə servislərində sürücülərin 94%-lik bir hissəsi əlavə xidmət olaraq filtrlərin dəyişdirilməsindən istifadə edir.

SAY: 440

## Yağdəyişmə mərkəzlərində əlavə hansı xidmətlərdən istifadə edirsiniz?



# Minik avtomobilləri sürücülərinin əsas hissəsi yağdəyişmə xidmətlərindən razıdır.

SAY: 440

**Azərbaycandakı yağdəyişmə xidmətlərindən razısınızmı?**



# Narazı olan əhalinin yarısının şikayəti düzgün məlumatlandırmanın olmamasıdır, həmçinin yağların tez sıradan çıxmasından da şikayətlənirlər.

SAY: 440

## Yağ dəyişmə xidmətindən narazı olmağınızın səbəbi nədir?



# Narazı olan şəxslərin əsas gözləntisi xidmət personalının daha peşəkar olması istiqamətindədir. Digər istəklər isə endirim kampaniyaların olması ilə bağlıdır.

SAY: 440

## Yağdəyişmə xidmətindən gözləntiniz və istəkləriniz nədir?



# Razı olan şəxslərin böyük qismi ustanın peşəkar olmasından və qiymətin münasib olmasından məmnundur

SAY: 440

## Yağdəyişmə xidmətindən razı olmağınızın səbəbi nədir?



# Yük maşını sahiblərin 75% qismi yağdəyişmə üçün servisə yaxınlaşır.

SAY: 106

## Yük maşını idarə edən sürücülər yağdəyişməni necə edir?



# Yük maşını idarə edənlər arasında yağdəyişməni özü edənlərin böyük hissəsi 0 - 35,000 km aralığında yağ dəyişir.

SAY: 26

**Neçə km sürdükdən sonra yağdəyişmə edirsiniz?**



# Yağdəyişməni özü edən yük maşını sürücülərinin 50%-i yağdəyişmə prosesinə 0 - 50 AZN aralığında pul xərcləyir.

SAY: 26

## Yağdəyişmə üçün nə qədər pul xərcləyirsiniz ?



# Yağdəyişiməni özü edənlərin əsas hissəsinin seçimi Castrol markasıdır.

SAY: 26

**Hansı yağ markasından istifadə edirsiniz?**



# Razı olan şəxslər böyük qismi ustanın peşəkar olmasından və qiymətin münasib olmasından məmnundur

SAY: 26

**Yağ markası seçimi edərkən nəyə önəm verirsiniz ? (çox variantlı)**



# Yük maşını sürücülərinin 64%-i 0 - 35,000 km aralıqda yağ dəyişir.

SAY: 46

## Neçə km sürdükdən sonra yağdəyişmə edirsiniz?



# Yağdəyişmə üçün servisə gedənlər əsasən TIR parklara getsələr də, həmçinin rəsmi servislərə gedənlər də az deyil.

SAY: 46

**Yağdəyişimi üçün servisə gedən yük maşını sürücüləri yağdəyişimini hansı tip servislərdə edir ?**



# Yağdəyişmə üçün servisə yaxınlaşanların böyük hissəsi 300 AZN-dən artıq məbləğdə pul xərcləyir, amma böyük hissəsinin ödənişi sahibkar tərəfindın qarşılanır.

SAY: 46

**Yağdəyişmə üçün nə qədər pul xərcləyirsiniz ?**



# Yağdəyişmə üçün servisə müraciət edənlər əsasən Shell markasından istifadə edir.

SAY: 46

**Hansı yağ markasından istifadə edirsiniz ?**



# Servisə müraciət edən sürücülər yağ seçimlərini usta məsləhətinə uyğun edirlər.

SAY: 46

**Mühərrik yağı seçimini nəyə əsasən edirsiniz?**



# Servisə müraciət edən yük maşını sürücülərinin böyük əksəriyyəti xidmət keyfiyyətindən razıdırlar.

SAY: 46

## Servislərdəki yağdəyişmədən məmnunsunuzmu ?



# Yağdəyişmə üçün servisə gedən sürücülərin yağdəyişmədən razı olma səbəblərinin əsasını ustaların peşəkar olması amili təşkil edir.

SAY: 41

**Yağdəyişmədən məmnun olmağınızın səbəbləri?**



# SWOT ANALİZİ

# Güclü tərəflər

| № | Başlıqlar |
|---|---|
| 1 | Bazarda yağ çeşidin çox olması (200-dən artıq marka) |
| 2 | Avtomobillərin yağdəyişmə kilometrajının az olması , tez-tez yağ dəyişilməsinə müraciət edilməsi |
| 3 | Yağlarda qiymət çeşidliyin müxtəlif olması |
| 4 | Əhalinin yağ markalarına önəm verməsi və məlumatlı olması |
| 5 | Biznes modelin sadə olması |
| 6 | Müştəri loyallığının yüksək səviyyədə olması |
| 7 | Biznesin qurulması zamanı investisiya xərclərinin az olması |
| 8 | Tədarük problemi və ya yağ çatışmazlığının olmaması |

## Zəif tərəflər

| № | Başlıqlar |
|---|---|
| 1 | Bazarda şəbəkələşmiş yağ mərkəzlərin az olması |
| 2 | Yağdəyişmə mərkəzlərinin əksəriyyətinin tək bokslu olması |
| 3 | Peşakar ustaların azlığı (yağ növləri və avtomobillər haqqında məlumatsızlıq) |
| 4 | Yağdəyişmə ilə paralel başqa xidmətlərin müştərilərə az təklif olunması |
| 5 | Müştəri qeydiyyatlarının və müştərilərə xüsusi yanaşmanın zəif səviyyədə olması (CRM və ERP sistemləri ilə iş) |
| 6 | Marketinq fəaliyyətlərinin olmaması, yalnız daimi müştəri bazası ilə iş üzərində yanaşmanın tətbiqi |
| 7 | Mərkəzdaxili xidmətlərin zəif olması |
| 8 | Gözləmə otaqlarının olmaması, xidmət keyfiyyətinə dair işlərin zəif təşkili |
| 9 | Minik avtomobilləri ilə müqayisədə yük maşınları üçün vahidləşmiş servislərin olmaması |
| 10 | Yağdəyişmə mərkəzlərinin əksəriyyətinin daxili görünüşünün müştəri üçün cəlbedici olmaması |

# İmkanlar

| № | Başlıqlar |
|---|---|
| 1 | Hər il ölkəyə avtomobil idxalının artması , bazarın həcminin böyüməsi |
| 2 | Alternativ (cross-selling) satışların həyata keçirilməsi imkanı ( əlavə xidmətlər) |
| 3 | Bazarda yağdəyişmə mərkəzlərinə inamın artması ( istifadənin artması ) |
| 4 | Yağ markaları üzrə distribyutorların sərfəli şərtlərlə bazarda dağıtım etməsi |

# Təhlükələr

| № | Başlıqlar |
|---|---|
| 1 | Rəqabətin artması, yeni yağdəyişmə mərkəzlərinin artması |
| 2 | Topdan yağ qiymətlərinin artması |
| 3 | Elektromobillərin sayının gələcək artımı və nəticədə mühərrik və sürətlər qutusu yağının dəyişilməsinə ehtiyac qalmaması |
| 4 | Pandemiya müddətində sürücülərin daha gec müddətdə yağdəyişmə xidmətlərinə müraciət etməsi |

# XARİCİ TƏCRÜBƏ

# Xarici ölkələrdəki yağdəyişmə mərkəzləri yağdəyişmədən əlavə çoxlu xidmətlər təklif edir və bu satışların artmasına səbəb olur.

## Xaricdəki yağdəyişmə mərkəzlərində hansı əlavə xidmətlər var?

**1.Təkərlərin yoxlanılması**



**2.Hava filtrlərinin dəyişdirilməsi**




**3.Benzin filtrinin yoxlanılması**



**4.Akumlyatorun suyunun yoxlanması**



**5.Faraların təmizlənməsi**



**6.Mühərrik kəmərlərinin yağlanması**



**7.Tormozun hidravlikasının yoxlanması**



**8.Şüşə silən rezinlərin dəyişdirilməsi**



# Xaricdə mərkəzləşmiş yağdəyişmə mərkəzlərinin çoxu yaxşı xarici görünüşə malikdir, həmçinin boks sayı birdən çoxdur. Xaricdə reklam bannerlərinə daha çox önəm verilir.

## Xarici ölkələrdəki yağdəyişmə mərkəzlərində xarici görünüş necə olur?







Nümunədə göstərilən xarici ölkələrdəki şəbəkələşmiş məşhur yağdəyişmə mərkəzləridir.
Burada bizim diqqət etməli olduğumuz əsas üç məsələ var:

1.Xarici görünüşlərində və reklam lövhələrində cəlbedici rənglərdən istifadə olunmalıdır;
2.Birdən çox bokslu olmalıdır;
3.Bannerlərə və küçə reklamlarına çox diqqət ayrılmalıdır.

# Xaricdə mərkəzləşmiş yağdəyişmə mərkəzlərin daxili tərtibatında gözləmə otaqları olur və yaxud gözləmə üçün yerlər ayrılır.

## Xarici ölkələrdəki yağdəyişmə mərkəzlərində daxili görünüş necə olur?







Nümunədə göstərilən xarici ölkələrdəki şəbəkələşmiş məşhur yağdəyişmə mərkəzlərinin daxili görüntüsüdür. Burada bizim diqqət etməli olduğumuz əsas üç məsələ var:

1. Daxili səliqə və təmizliyə önəm verilməlidir.
2. Gözləmə otaqları olmalıdır.
3. Müştəri gözləmə otaqlarından servisin daxilini, maşının yağdəyişməsini rahat izləyə bilməlidir.

# XİDMƏT ÜZRƏ TƏKLİFLƏR

# Təkliflər

| № | Başlıqlar |
|---|---|
| 1 | Ustaların peşakarlıq səviyyələrin artırılması üçün xüsusi təlimlərdə iştiraklarının təşkil edilməsi. |
| 2 | Yağdəyişmə xidmətində marka yaradılması, şəbəkələşmək və sistemli biznesin yaradılması. |
| 3 | Çarpaz satışlar üçün əlavə xidmətlərin təşkili , daha sonra vahid qiymət paketlərinin təşkil edilməsi. |
| 4 | Xidmətdən birvdəfə istifadə edən müştərilərin qeydiyyata alınması, onların ən son nə vaxt, hansı km-də yağ dəyişimini etdiyini, hansı yağ markasından istifadə edildiyinin qeyd edilməsi və daimi xatırlatma mesajları ilə yenidən satışın edilməsi. |
| 5 | Yeni müştəri cəlbi üçün yağdəyişmə mərkəzləri marketinq büdcələri təşkil etməli, sosial media və ya lazımi marketinq kommunikasiya kanallarından istifadəni genişləndirməlidir. |
| 6. | Müştəri məmnunluğunu artırmaq üçün servislərdə istifadə olunan yağ marka çeşidlərinin artırılması, qiymət müxtəlifliyinin yaradılması. |

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR